Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Elmi proqramlar milli və qlobal miqyasda tərəqqinin əsas vasitələrindən biridir....

**Müasir dövrdə elmin inkişafı və onun nailiyyətlərinin geniş kütlələrə çatdırılması cəmiyyətin tərəqqisi üçün mühüm amillərdən biridir. Bu baxımdan elmi-kütləvi proqramların xüsusi əhəmiyyəti var. Televiziya, radio, internet və digər kommunikasiya vasitələri üzərindən yayımlanan belə proqramlar insanların elmə marağını artırır, elmi bilikləri sadə və anlaşılan formada təqdim edərək kütləvi maariflənməyə xidmət edir.**

### İnnovativ ideyaların təşviqi və intellektual inkişaf mühitinin gücləndirilməsinə xidmət edən yay düşərgəsi…

Elmi-kütləvi proqramlar insanların gündəlik həyatlarında rastlaşdıqları bir çox proseslərin mahiyyətini izah etməklə bilik səviyyəsini artırır. Elm adamlarının mürəkkəb termin və nəzəriyyələrini sadələşdirərək geniş auditoriyaya təqdim edən bu proqramlar maarifçilik funksiyasını yerinə yetirir. Beləliklə, cəmiyyətin intellektual potensialı yüksəlir, insanlar dünyaya daha geniş baxış bucağından yanaşmağa başlayırlar. Müasir dövrdə bu məsələ həm də süni intellektin sürətli inkişafı fonunda olduqca actual xarakter daşımağa başlayıb.

Elə bunlar fonunda Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunda "Kibernetika və informatikanın problemləri" mövzusunda VI beynəlxalq konfrans da xüsusi diqqət cəlb edir. Qeyd edəkki, konfransın məqsədi süni intellekt, idarəetmə sistemləri, siqnal emalı, optimallaşdırma və görüntülərin tanınması sahələrində son elmi nailiyyətləri müzakirə etmək, qabaqcıl tədqiqatları təqdim etmək və beynəlxalq əməkdaşlığı gücləndirməkdir. Hibrid formatda keçirilən konfransda Türkiyə, ABŞ, Polşa, Fransa, Belçika, Gürcüstan, Almaniya, Avstraliya, Rusiya, Ukrayna, Estoniya, İsveçrə, Bolqarıstan, Özbəkistan, Qazaxıstan, Yaponiya və digər ölkələrin aparıcı alimləri iştirak ediblər. Konfransda 30-dan çox ölkənin elmi ictimaiyyətinin nümayəndələri yuxarıda qeyd edilən istiqamətlərdə real durumun mənzərəsini yaratmağa çalışıblar. Belə tədbirlərin ən mühüm əhəmiyyətlərindən biri də cəmiyyətdə, xüsusən gənclərdə elmə marağın artırılmasıdır. Məktəblilərin və tələbələrin elmi-kütləvi proqramlar vasitəsilə yeni texnologiyalar, kəşflər və innovativ ideyalarla tanış olması onların gələcəkdə elm sahəsində fəaliyyət göstərməsinə stimul yaradır. Bu isə ölkənin elmi-texniki tərəqqisinə, yeni kadrların yetişdirilməsinə töhfə verir. Onu da qeyd edək ki, Elmi-kütləvi proqramlar alimlərlə cəmiyyət arasında vasitəçi rolunu oynayır. Əgər elm yalnız laboratoriyalarda, konfranslarda və dar mühitdə qalsa, onun nəticələri geniş ictimaiyyətə məlum olmayacaq. Proqramlar isə bu boşluğu dolduraraq elmi nailiyyətləri ictimaiyyətə çatdırır, beləliklə elm və gündəlik həyat arasında körpü qurur. Elmi-kütləvi proqramlar insanların tənqidi düşünmə qabiliyyətini gücləndirir. Onlar mövcud faktları, elmi sübutları və məntiqi əsasları tamaşaçıya təqdim etməklə, insanlarda yanlış təsəvvürlərin aradan qaldırılmasına kömək edir. Bununla yanaşı, müvafiq düşərgələrin təşkili də prosesdə öz sözünü deyr. Ölkmizdə bu məqama da xüsusi diqqət edilir. Elə bu günlərdə Gənclər və İdman Nazirliyinin dəstəyi və AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə Qazax Olimpiya İdman Kompleksində "Milli dəyərlərlə rəqəmsal gələcəyə" devizi altında gənc alim və tədqiqatçıların yay düşərgəsi təşkil olunub. Ölkənin müxtəlif ali və elmi-tədqiqat müəssisələrindən olan gənc alimlər, magistrantlar və doktorantlar yay düşərgəsi günlərində həm milli-mənəvi dəyərlərin qorunması, həm də rəqəmsal dünyanın çağırışlarına uyğun inkişaf imkanları barədə müzakirələr aparıblar. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən düşərgəyə 90 magistr, gənc alim və tədqiqatçı qatılıb. Düşərgənin təşkil olunmasında məqsəd gənc alim və tədqiqatçıların bir araya gələrək bilik və təcrübə mübadiləsi aparması, elmi əməkdaşlıqlar qurulması, innovativ ideyaların təşviqi və intellektual inkişaf mühitinin gücləndirilməsidir.



### Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında Azərbaycan uğurla təmsil olunur

Dünya təcrübəsi göstərir ki, elmi-kütləvi proqramların iqtisadi tərəqqiyə də dolayısı ilə təsiri vardır. Cəmiyyət elm və texnologiya barədə məlumatlı olduqca innovativ təşəbbüslərə dəstək artır, istehsalda yeni yanaşmalar tətbiq olunur. Sosial baxımdan isə belə proqramlar insanlarda bilik, yaradıcılıq və araşdırma mədəniyyətini formalaşdırır.

Müasir dövrdə elmi-kütləvi proqramlar beynəlxalq əməkdaşlığa da yol açır. Dünyanın müxtəlif ölkələrində yayımlanan belə proqramların izlənməsi xalqlar arasında bilik mübadiləsini gücləndirir, elmi universal dəyər kimi təqdim edir. Bu da insanların bir-birinə yaxınlaşmasına və qlobal problemlərin həllində birgə əməkdaşlığa şərait yaradır. Elə bu günlərdə Gürcüstanın Anaklia şəhərində keçirilən Gürcüstan-Azərbaycan gənclərinin yay düşərgəsi buna missal ola bilər. Düşərgə müddətində gənclər komanda quruculuğu sessiyalarına və bir sıra idman oyunları üzrə müsabiqələrə qatılıblar. Bu da onlar arasında təcrübə mübadiləsində mühüm rol oynayıb. Beynəlxalq elmi yarışlar da bu foda olduqca mühümdür. Missal olaraq qeyd edə bilərik ki, avqustun 11-21-də Hindistanın Mumbay şəhərində keçirilən XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında Azərbaycan məktəbliləri ölkəmizi uğurla təmsil ediblər. Bakı Dövlət Universitetində V Azərbaycan Astronomiya Olimpiadasının qalibləri arasında keçirilmiş seçmə imtahan əsasında müəyyən edilən 5 nəfərlik Azərbaycan komandası olimpiadada iştirak edib. Komandanın nəzəri və praktiki hazırlığı BDU-nun müəllimləri tərəfindən olimpiadaya qədər davam etdirilib və şagirdlər bu hazırlıq prosesində yüksək səviyyədə bilik və bacarıq qazanıblar. Olimpiada nəzəri və praktiki turlardan ibarət olub. Azərbaycan məktəbliləri 2 bürünc və 2 həvəsləndirici mükafat qazanıblar. Azərbaycan məktəbliləri artıq 5 ildir ki, bu mötəbər yarışda iştirak edir, bu müddət ərzində 11 dəfə fəxri ada və mükafata layiq görülüblər. Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadası hər il ənənəvi olaraq təşkil olunur və nəzəriyyə, məlumatların təhlili, teleskoplardan istifadə və digər praktiki mərhələlərdən ibarət olmaqla, dünyanın nüfuzlu elmi olimpiadaları sırasında yer alır. Beləliklə, elmi-kütləvi proqramlar sadəcə informasiya mənbəyi deyil, həm də cəmiyyətin intellektual inkişafının mühüm vasitəsidir. Onlar maarifləndirir, elmə maraq yaradır, tənqidi düşünməni formalaşdırır və elm ilə gündəlik həyat arasında körpü rolunu oynayır. Belə proqramların inkişaf etdirilməsi və daha da genişləndirilməsi həm milli, həm də qlobal miqyasda tərəqqinin əsas şərtlərindən biridir.

***Tahir TAĞIYEV***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur*